*Naxçıvan Azərbaycan xalqının qədim tarixini əks etdirən müqəddəs bir torpaqdır. Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır.*

***

*Azərbaycan nadir bir ölkədir, nadir bir ərazidir, bəşər tarixində Azərbaycan bir ərazi kimi, bir ölkə kimi və Azərbaycan xalq kimi böyük tarixi proseslərin iştirakçısı olubdur... Azərbaycan haqqında fikirlərimi sizə çatdırmaq, demək istəyirəm ki, bu baxımdan Naxçıvanın qədim, zəngin tarixi Azərbaycan tarixinin çox parlaq səhifələrindəndir.*

**Ümummilli Lider**
**Heydər Əliyev**

# Tarixi

Naxçıvan ərazisində aparılan arxeoloji tədqiqatlar şəhərin çox qədim tarixə malik olduğuna şübhə yeri qoymamışdır. E.ə. IX – VI əsrlərdə Naxçıvan qədim Manna, İşquz və Midiya dövlətlərinin tərkibində olmuşdur. Madayların hakimiyyəti dövründə Naxçıvan artıq tanınmış şəhərlərdən biri idi. E.ə. 663-cü ildə Naxçıvan skiflərin hücumuna məruz qalaraq xeyli zərər çəkmişdi. E.ə. VI əsrin ortalarından (e.ə. 550-ci ildə Midiya dövləti tənəzzülə uğradıqdan sonra) e.ə. IV əsrin 30-cu illərinə kimi şəhər Əhəmənilər (Haxamanişilər) dövlətinin hakimiyyəti altında olmuşdur.

Əhəmənilər imperiyası süquta uğradıqdan sonra Naxçıvan və onun daxil olduğu Bosporeda vilayəti e.ə. IV əsrdən e.ə. I əsrin I yarısınadək yeni yaranmış Kiçik Midiya — Atropatena dövlətinin tərkibində olmuşdur.[19] Bu dövrdə Naxçıvan Yaxın Şərqin bir sıra şəhərləriylə iqtisadi və mədəni əlaqələri xeyli genişləndirmiş, antik dövlətlər ilə sıx ticarət əlaqələri yaratmışdı. E.ə. I əsrdə Naxçıvan ərazisi Böyük Ermənistan çarları I Artaşes və II Tiqran tərəfindən işğal edilsə də, şəhər qısa müddət sonra azad edilmiş və artıq b. e. I əsrindən Naxçıvan şəhəri Qafqaz Albaniyasının tərkibinə daxil olmuşdur.

Naxçıvan ərazisi əvvəlcə Qafqaz Albaniyasının Orxistena – Araksena (Arazın orta və aşağı boyunda yerləşən tarixi vilayət), daha sonra isə Sisakan – Sünik vilayətinin tərkibinə daxil olmuşdur. Sasani hökmdarı II Şapur (309–379) Qafqaz yürüşü zamanı (364–367) Naxçıvan şəhərini dağıtmış, 18 min ailəni isə əsir aparmışdı. Qafqaz Albaniyasının bəzi vaxtlarda Sasanilərin nüfuz dairəsində olması Naxçıvanın da Sasani canişinləri – mərzbanlar tərəfindən idarə edilməsinə səbəb olmuşdu. Bu dövrdə Sasani mərzbanlarının iqamətgahı Dvindən Naxçıvana köçürülmüş, Naxçıvan Sasani hökmdarlarının hərbi – strateji mövqelərindən birinə çevirilmişdi. Şəhərdə böyük Sasani qoşun dəstələrinin saxlanılmasına başlanmışdı.

Erkən orta əsrlərdə Naxçıvan inkişaf edir və böyüyürdü. Məhz bu dövrdə Naxçıvanda Sasani şahlarından III Yezdəgirdin hakimiyyəti zamanı (632–651) Naxçıvanda Yezidabad qalası inşa edilmişdir.

VI əsrin I yarısından Naxçıvanda Sasanilərə məxsus zərbxana fəaliyyət göstərməyə başlamışdır. Bu, Azərbaycanda ən qədim zərbxanalardan biri hesab edilir. Tarixçi – numizmat prof. Y. A. Poxomovun fikrincə, Sasani hökmdarlarının adından kəsilmiş "naxç" işarəli gümüş dirhəmlər Naxçıvan zərbxanasına məxsusdur. 625-ci ildə Bizans imperatoru İraklinin (619–641) yürüşü nəticəsində dağıdılan Atropatena – Adərbayqan şəhərlərindən biri də Naxçıvan olmuşdur.

654-cü ildə isə Naxçıvan xəlifə Osman ibn Affanın (644–656) hökmranlığı zamanında ərəblər tərəfindən tutulmuşdur. Ərəb əmiri Həbib ibn Məsləmə ilə Naxçıvan əhalisi arasında bağlanmış sülh müqaviləsinə görə Naxçıvan əhalisi Xilafətə hər il cizyə və xərac ödəməyi öhdəsinə almışdı. 656-cı ildə Naxçıvan qalası yaxınlığında Xilafət və Bizans qoşunları arasında güclü döyüş baş vermişdi. Bizansa qarşı əsas dayaq nöqtələrindən biri olan Naxçıvan Ərəb Xilafətinin Azərbaycanda inzibati və hərbi mərkəzi və ərəb əmirlərinin əsas iqamətgahlarından biri idi.

IX əsrdə Azərbaycanda Ərəb Xilafəti əleyhinə qalxmış Xürrəmilər hərəkatının ən geniş yayıldığı və dəstəkləndiyi bölgələrdən biri də Naxçıvan idi. Naxçıvan inzibati baxımdan Ərəb Xilafətinin III əmirliyinin tərkibinə daxil idi. IX əsrdə Naxçıvan Basfurracan (Vaspurakan) vilayəti ilə birlikdə Ərəb Xilafətinin xəzinəsinə 100 min dirhəm xərac verirdi.

IX əsrin sonlarından Naxçıvan Sacilər dövlətinin tərkibinə daxil edildi və X əsrin 30-cu illərinədək onun hakimiyyətində qaldı.[31] Sacilər dövləti süquta uğradıqdan sonra Naxçıvan bir müddət hələ də onların əmirlərindən olan Deysəm ibn İbrahimin (932–937) ixtiyarında idi. Sonra isə Naxçıvan Salarilər dövlətinin tərkibinə daxil olmuşdur. X əsrin sonlarından başlayaraq, Naxçıvan, təqribən bir əsr ərzində Azərbaycanın tarixində mühüm rol oynamış Rəvvadilər dövlətinin tərkibində idi.

X əsrin sonundan XI əsrin 60-cı illərinə kimi Naxçıvan Naxçıvanşahlıq adlı feodal dövlətinin paytaxtı olmuşdur. Naxçıvanşahlıq mənbələrdə Əbudüləfilər və Düləfilər kimi bilinən ərəb mənşəli sülalə tərəfindən idarə olunmuşdur.

Səlcuq sultanı Alp Arslan (1063–1072) Azərbaycanın cənub vilayətlərində Rəvvadilər dövlətinin hakimiyyətinə son qoyduqdan sonra Naxçıvana da yiyələnmiş və burada özünə iqamətgah inşa etdirmişdi. Səlcuqluların Azərbaycan üzrə canişini Naxçıvanda əyləşirdi.

Naxçıvan şəhəri XII əsrin 30-cu illərindən 70-ci illərin ortalarına kimi Azərbaycan Atabəylər dövlətinin paytaxtı olmuşdur. Naxçıvanın tarixi coğrafiyası ilə bağlı aparılmış son tədqiqatlara görə isə Naxçıvan şəhəri 1146-cı ildən sonra Eldənizlər dövlətinin tərkibinə qatılmış və əsas mərkəzə çevrilmişdir. Mirxondun məlumatına görə Şəmsəddin Eldəniz Arranı özünə tabe etdikdən sonra sultan Məsudun Azərbaycandakı canişini Çavlinin ölümü (1146) ilə yaranan qarışıqlıqdan istifadə etmiş və Naxçıvanı öz mülklərinə qatmışdır. Bundan sonra Eldəniz paytaxtı Naxçıvana köçürmüş və Azərbaycanın böyük hissəsinin sahibi olmuşdur. Mxitar Qoşa istinad edərək akademik Z. Bünyadov da Naxçıvan vilayətinin Eldənizlərin tərkibinə qatılma tarixini 1146-cı il olaraq göstərmişdir. 1136-cı ildən 1146-cı ilə

qədərki dövrdə isə Eldənizin iqamətgahı Arran vilayətinin mərkəzi sayılan Bərdə şəhərində yerləşmişdir. Çünki, Zahirəddin Nişapuri "Səlcuqnamə"də 1136-cı ildə Sultan Məsudun Arranı Eldənizə iqta verərkən onun Bərdədəki iqamətgahına yola düşməsi haqqında məlumat vermişdir. Mərkəzin Naxçıvana köçürülməsi şəhərin inkişafına xüsusi qayğı göstərilməsinə, onun abadlaşdırılmasına və möhkəmləndirilməsinə rəvac vermişdir.

1221-ci ildə Naxçıvan şəhəri monqollar tərəfindən dağıdıldı, əhalisi qarət və talan edildi. 1225-ci ildə Xarəzmşah Məhəmmədin oğlu Cəlaləddin Mənqburnı Naxçıvanı işğal etdi. Naxçıvanda onun əleyhinə üsyan baş verdi. XIII əsrin 30-cu illərində Naxçıvan Qızıl Ordanın tərkibinə daxil edildi. 1257-ci ildə isə Hülakülər dövlətinin tərkibinə daxil oldu.

XIII əsr mənbələrindən məlum olur ki, Elxanilər dövlətinin tərkibinə daxil olan Azərbaycan doqquz tümənə bölünmüşdü ki, onlardan da biri, Naxçıvan tüməni idi. Naxçıvan tüməni müasir Naxçıvan MR ərazisini, o cümlədən Naxçıvan şəhərini əhatə edirdi. Azərbaycanın 27 iri şəhərindən 5 – i – Naxçıvan, Ordubad, Azad, Əncan və Maku bu tüməndə yerləşirdi.

1386-cı ildə Naxçıvan Qızıl Orda hökmdarı Toxtamış tərəfindən tutulmuş və dağıntıya məruz qalmışdır.[44] 1387-ci ildə isə Naxçıvanı Əmir Teymurun qoşunları ələ keçirmişdir.[45] Naxçıvan əhalisi Əlincə qalasında Teymur qoşunlarına 14 il (1387–1401) inadlı müqavimət göstərmişdir.

Naxçıvan şəhəri 1412-ci ildən Azərbaycanın türk mənşəli Qaraqoyunlu[47], 1468-ci ildən isə Ağqoyunlu[48] dövlətlərinin tərkibində olmuşdur. XVI əsrdə isə Naxçıvan Səfəvilər dövlətinin tərkibində idi.[49] 1501-ci ildə Naxçıvan ərazisində Səfəvilər və Ağqoyunlular arasında Şərur döyüşü baş vermişdi. Səfəvi qoşunları bu döyüşdə qalib gəldikdən sonra Naxçıvan şəhərini fəth etmişdilər.[50]

XVI – XVII əsrlərdə Səfəvi–Osmanlı müharibələri (1514, 1553, 1554, 1579, 1585, 1590, 1605, 1635) zamanı Naxçıvan şəhəri dəfələrlə əldən — ələ keçərək dağıdılmış, qarət edilmişdi. 1603-cü ildə isə I Şah Abbas Naxçıvanı hakimiyyəti altına alıb hərbi düşərgəyə çevirmişdi. Şəhərin idarəsi Maqsud Sultan Kəngərliyə həvalə olundu. 1605-ci ildə Osmanlı qoşunları Naxçıvanı zəbt etdilər, Naxçıvan Osmanlı imperiyasının tərkibinə qatıldı. XVII əsrə aid bir salnaməyə görə Naxçıvanda bir bina da olsun salamat qalmamışdı.

Naxçıvan XVII əsrin əvvəllərində Nadir şah Əfşarın qoşunları tərəfindən fəth edilmiş və Əfşarların hakimiyyəti altına keçmişdir. Nadir şah öldürüldükdən (1747) sonra kəngərli tayfa başçısı Heydərqulu xan Nadir şahın naibi Ağa Həsəni Naxçıvandan qovaraq özünü xan elan etdi və Naxçıvan xanlığının əsasını qoydu. Naxçıvan şəhəri xanlığın paytaxtı oldu.

1828-ci il Türkmənçay müqaviləsinə əsasən Naxçıvan Çar Rusiyasının tərkibinə qatılmışdı. Naxçıvan Çar Rusiyasının tərkibinə qatıldıqdan sonra çar hökuməti İrandan və Şərqi Anadoludan on minlərlə erməni ailəsini Naxçıvan xanlığı ərazisinə köçürmüş və Naxçıvanın demoqrafik quruluşu kəskin surətdə dəyişilmişdi.

Naxçıvan ərazisi də Azərbaycanda yaradılmış Erməni vilayətinin tərkibinə daxil oldu.

1841-ci ildə Naxçıvan qəza mərkəzinə çevirildi. Çarizmin 1870-ci ildə həyata keçirilmiş şəhər islahatı Azərbaycanın digər şəhərləri kimi Naxçıvan şəhərinə də tətbiq olundu.

1917-ci ilin sonlarında ermənilərin Naxçıvana qarşı ərazi iddialarının daha da güclənməsi 1918-ci ilin əvvəllərində real təhlükəyə çevirildi, nizami daşnak silahlı dəstələri türklərlə mübarizə adı altında Naxçıvanın bir çox kəndlərini dağıdaraq, dinc əhaliyə divan tutdu.

1918-ci il 26 – 28 may tarixlərində Gürcüstan, Azərbaycan və Ermənistan öz müstəqilliklərini elan etdikdən sonra Ermənistanın daşnak hökuməti Naxçıvanı özünə ilhaq etmə siyasəti yeritməyə başladı. Yalnız türk əsgərlərinin bölgəyə göndərilməsi və yerli əhalinin fəal müqaviməti Naxçıvanın ermənilərin hakimiyyəti altına düşməsinin qarşısını aldı. Mudros barışığına (1918) əsasən, Türkiyə öz qoşunlarını Naxçıvandan çıxarmağa məcbur oldu.

1918-ci ilin noyabrında bölgədə Araz-Türk Cümhuriyyəti yaradıldı, lakin 1919-cu ilin əvvəlində Naxçıvanı tutan ingilislər gənc respublikanı tanımadılar, xalqın rəyini soruşmadan Naxçıvan və Şərur bölgəsinin Ermənistan ərazisi olduğunu elan etdilər. Araz-Türk Respublikası süquta uğradı. 1919-cu ilin iyulunda daşnaklar ingilislərin köməyi ilə Naxçıvanı tutdular. Çox keçmədən ingilislərin Naxçıvanı tərk etməsindən istifadə edən Naxçıvan Milli Komitəsinin hərbi dəstələri daşnakların nizami qoşununu Naxçıvandan qovdu.

1920-ci il aprelin 28 – də Bakıda, iyulun 28 – də Naxçıvanda sovet hakimiyyətinin elan edilməsi və Azərbaycan SSR – nin yaradılması, Zəngəzurun Azərbaycandan alınaraq Ermənistana verilməsi və Naxçıvanın Azərbaycandan ayrı düşməsi, Naxçıvanın muxtariyyəti məsələsini gündəliyə gətirdi. 29 noyabr, 1920-ci ildə Ermənistanda sovet hakimiyyəti elan edildikdən sonra Ermənistan SSR hökuməti də Naxçıvanı özünə ilhaq etmək üçün dəfələrlə cəhdlər göstərdi, lakin 1921-ci ilin yanvarında Naxçıvan əhalisinin 90 faizi muxtariyyət statusunda Azərbaycan SSR — ə birləşməyə səs verdi. Naxçıvan yeni yaradılan Naxçıvan SSR – nin, Naxçıvanın muxtariyyət statusunu qəti müəyyənləşdirən Moskva və Qars müqavilələri imzalandıqdan (1921) sonra, 1924-cü il 9 fevralda Naxçıvan MSSR təşkil edilərkən respublikanın paytaxtı oldu.

1990-cı ildən Naxçıvan Muxtar Respublikası adlanan Azərbaycan Respublikasının tərkibində muxtar dövlət olan bu qurum 1920-23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923-24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924-90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası adlanmışdır. Şimalda və şərqdə Ermənistan Respublikası (sərhəd xəttinin uzunluğu 246 km), qərbdə və cənubda Türkiyə (11 km) və İran İslam Respublikası (204 km) ilə həmsərhəddir. Naxçıvan Muxtar Respublikasının Ermənistan ilə təbii sərhədini, əsasən, Zəngəzur və Dərələyəz silsilələrinin suayırıcıları, Türkiyə və İranla sərhədini isə Araz çayı təşkil edir. Ərazisi şimali-qərbdən cənubi-şərqə doğru 158 km

məsafədə uzanır. Muxtar respublikanın şimalda ən ucqar nöqtəsi Saraybulaq silsiləsinin Şərur rayonu ərazisindəki Kömürlü dağı (2064 m), ən cənub nöqtəsi isə Arazın sol sahilində 600 m yüksəklikdə yerləşən Zerəni dəmiryol stansiyasıdır. Şimaldan cənuba doğru ən böyük məsafəsi 75 km-ə bərabərdir. Qədim Azərbaycan torpağı Zəngəzurun 1920-ci ildə "sovet rəhbərliyi" tərəfindən qanunsuz olaraq Ermənistana verilməsi nəticəsində 44-45 km enində zolaq Araza doğru uzanaraq, Naxçıvan Muxtar Respublikasını Azərbaycan Respublikasının qalan ərazisindən ayırmışdır. 1924-cü ildə Naxçıvan MSSR-də 3 qəza və 12 dairə təşkil olunmuş, 1925-ci ildə qəzalar ləğv edilmiş, dairələrin sayı 8-ə endirilmişdi: Baş Noraşen, Qıvraq, Tumbul, Əbrəqunus, Nərimanov, Culfa, Parağa və Ordubad. 1930-cu ilin birinci yarısında Şahbuz rayonu əlavə edilməklə Şərur, Naxçıvan, Culfa, Ordubad, Əbrəqunus rayonları yaradıldı. 1948-ci ildə Əbrəqunus rayonu Culfa rayonu ilə birləşdirildikdən sonra Naxçıvan MSSR inzibati cəhətdən beş rayona - Naxçıvan (1978-ci ildən Babək), Şərur, Şahbuz, Culfa və Ordubad rayonlarına bölünmüşdür. 1990-cı il avqustun 28-də Azərbaycan SSR Ali Sovetinin fərmanına əsasən Türkiyə ilə həmsərhəd bölgənin sosial-iqtisadi inkişafını daha da sürətləndirmək və gücləndirmək məqsədilə, həmçinin ərazinin geostrateji mövqeyi nəzərə alınaraq, Sədərək kəndi və ona məxsus ərazilər əsasında Sədərək rayonu yaradılmışdır.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 2004-cü il 19 mart tarixli qanuna əsasən sərhəd bölgələrində və gediş-gəliş çətin olan dağlıq və dağətəyi ərazilərdə əhalinin ehtiyaclarını daha dolğun ödəmək və məskunlaşmasını təmin etmək, dövlət idarəetməsini təkmilləşdirmək, həmçinin sərhədboyu ərazinin müdafiəsinin daha da möhkəmləndirilməsini təmin etmək məqsədilə hər iki rayonun mərkəzlərindən 35-40 km aralıda dağlıq və dağətəyi əraziləri əhatə edən sərhədboyu zonalarda yerləşən 9 inzibati-ərazi dairəsinin 11 kəndinin bazasında Kəngərli rayonu yaradılmışdır.

1929-cu il fevralın 18-də Zaqafqaziya MİK totalitar inzibati-amirlik şəraitində Naxçıvan MSSR-in 9 kəndinin - Şərur dairəsinin Qurdqulaq, Xaçik, Horadiz, Şahbuz nahiyəsinin Oğbin, Sultanbəy, Ağxəç, Almalı, İtqıran kəndlərinin, Ordubad dairəsinin Qorçevan kəndinin, habelə Kilit kəndinin torpaqlarının bir hissəsinin, əkin sahələri və otlaqları ilə birlikdə Ermənistan SSR-ə birləşdirilməsi haqqında qərar qəbul etmişdir. Zaqafqaziya MİK-in Naxçıvanın sərhədləri məsələsinə baxması, Moskva müqaviləsi (1921) və Qars müqaviləsi (1921) sənədlərini imzalayan tərəflərin iştirakı olmadan Naxçıvan ərazisinin bir hissəsinin Ermənistana verilməsi beynəlxalq hüquq normalarının kobudcasına pozulması, Azərbaycan xalqına qarşı əsl xəyanətkarlıq və cinayət idi.

Ulu öndər Heydər Əliyevin sədrliyi ilə keçirilən muxtar respublika parlamentinin 1990-cı il 17 noyabr tarixli sessiyasında muxtar respublikanın rəsmi adından «Sovet Sosialist» sözləri çıxarılmış, qanunverici hakimiyyət orqanının adı dəyişilərək Ali Məclis qoyulmuş, ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ermənistan (sərhəd xəttinin uzunluğu 246 km), Türkiyə (11 km) və İranla (204 km) həmsərhəddir.

Moskva (1921-ci il, 16 mart) və Qars (1921-ci il, 13 oktyabr) müqavilələri imzalanarkən 6 min kvadrat kilometrdən artıq ərazisi olan Naxçıvan Muxtar Respublikasının torpaqları əsassız ərazi iddiası irəli sürən Ermənistan tərəfindən Moskvadakı güclü erməni lobbisinin himayəsi ilə, qanunsuz şəkildə və hissə-hissə ilhaq olunaraq (1924,1928, fevral 1929, may 1969) 5,3 min kvadrat kilometrə endirilmişdir.

Azərbaycana qarşı ədalətsiz müharibəyə başlayan Ermənistan Respublikası tərəfindən 1991-ci ildən tam iqtisadi blokadaya alınan Naxçıvan Muxtar Respublikası Sədərək rayonunun Kərki kəndi 1990-cı il yanvarın 19-da ermənilər tərəfindən işğal olunmuşdur. Müharibə nəticəsində muxtar respublikadakı bir qəsəbə və 3 kəndin əhalisi ata-baba yurdundan didərgin düşmüşdür.

Müstəqillik hər bir xalqın ən böyük arzusudur. Azərbaycanın yenidən istiqlaliyyət əldə etməsi xalqın böyük nailiyyəti idi. Hakimiyyət çəkişmələri və siyasi hərc-mərcliyin baş alıb getdiyi Bakıdan fərqli olaraq Heydər Əliyevin rəhbərlik etdiyi Naxçıvan istiqlal mübarizəsi və yeni həyat quruculuğunun önündə gedirdi. Məhz ilk dəfə Naxçıvanda SSRİ-nin tərkibindən çıxmaq haqqında qərar qəbul edilmiş, SSRİ-nin saxlanılması haqqında referenduma etiraz edilmişdi. Yeni, müstəqil Azərbaycanın qurulması prosesi Naxçıvanda uğurla davam etdirilirdi. Rəsmi Bakı isə Heydər Əliyev dühasından, Naxçıvan təcrübəsindən faydalanmaq əvəzinə, Naxçıvana təzyiq göstərmək, Muxtar Respublikanın hüquqlarını məhdudlaşdırmaq yolunu tutmuşdu. Bu dövrdə Azərbaycan Respublikası Konstitusiyasının 112-ci maddəsinin Naxçıvan Ali Məclisinin Sədrinə aid bəndinin çıxarılmasına, ümumiyyətlə, Naxçıvanın muxtariyyətinin ləğv edilməsinə cəhdlər göstərilmişdi. Lakin bütün bu cəhdlər iflasa uğradı. Naxçıvan Muxtar Respublikası tarixin bu mürəkkəb sınaq çağında da Heydər Əliyev müdrikliyi və qətiyyəti sayəsində öz muxtariyyətini qoruyub saxlaya bildi. Və bu, sonralar 1998-ci il Konstitusiyasında təsbit olundu.

Bakıda hakimiyyət çəkişmələri şəraitində siyasi hərc-mərclik və xaosun baş alıb getdiyi halda Naxçıvanda sabit hakimiyyət formalaşmışdı. Blokada şəraitində yaşayan Naxçıvanda sosial-iqtisadi və mədəni həyatın müxtəlif sahələrindəki nailiyyətlər qorunub saxlanılır, müstəqillik şəraitində ona yeni məzmun vermək uğrunda qətiyyətli mübarizə gedirdi. 1991-ci ilin sentyabrından 1993-cü ilin iyununadək olan dövrdə Naxçıvanda görülən böyük işlər Heydər Əliyevin nitq, çıxış və müsahibələrində, dövri mətbuatda və müxtəlif toplulardakı sənədlərdə əks olunmuşdur. Onların əsas məzmunu Muxtar Respublikanın idarə sisteminin təkmilləşdirilməsi, sosial-iqtisadi islahatlar hazırlanması və həyata keçirilməsi, blokadanın aradan qaldırılması üçün həmsərhəd ölkələr, xüsusilə Türkiyə ilə münasibətlərin yeni səviyyədə qurulması və b. ibarət idi. 1992-ci il mayın 28-də Sədərəkdə Naxçıvanla Türkiyə arasında körpünün açılışı xüsusilə böyük əhəmiyyətə

malik idi. Heydər Əliyev bu körpünü «arzu və ümidlərimizin körpüsü» adlandırmışdı.

Naxçıvan Muxtar Respublikası təkcə öz sərhədləri daxilində deyil, bütün Azərbaycan üçün sabitləşdirici amilə çevrilməkdə idi. Bu, Naxçıvanın Azərbaycanın müasir tarixindəki misilsiz xidmətlərindən biri idi. Təsadüfi deyil ki, 1993-cü ilin iyun hadisələri zamanı bütün respublikanın diqqəti Naxçıvana yönəldi və xalqın tələbi ilə Naxçıvan Ali Məclisinin Sədri Heydər Əliyev Bakıya gəldi, respublikanın siyasi hakimiyyətində dəyişiklik baş verdi, vətəndaş müharibəsinin, separatçı qüvvələrin fəaliyyətinin qarşısı alındı, sabitlik və əmin-amanlıq yaradıldı, sosial-iqtisadi islahatların hazırlanması və həyata keçirilməsinə başlandı. Heydər Əliyevin başladığı qurtuluş mübarizəsi qələbə çaldı. Azərbaycan Respublikasının rəhbəri kimi Heydər Əliyevin diqqət və qayğısı Naxçıvanın sonrakı inkişafında da həlledici rol oynadı.

Azərbaycanın müstəqilliyi dövründə Naxçıvan MR tarixinin ən mühüm siyasi hadisələrindən biri də, onun tarixi və müasir inkişaf sahəsində əldə etdiyi nailiyyətləri təsbit edən yeni Konstitusiyasının qəbulu olmuşdur. Heydər Əliyevin sədrliyilə Azərbaycan Respublikasının yeni Konstitusiyasının layihəsini hazırlayan komissiya tərəfindən başa çatdırılmış və 1995-ci il noyabrın 12-də keçirilən Azərbaycan Respublikası referendumunda qəbul olunmuş Konstitusiyanın VIII fəsli (maddə 134-141) bilavasitə Naxçıvan Muxtar Respublikasına həsr edilmişdir. 1998-ci ilin yanvarında Heydər Əliyevin sədrliyilə Azərbaycan Respublikası Konstitusiya komissiyasının iclasında Naxçıvan Muxtar Respublikasının Konstitusiya layihəsi müzakirə olunmuşdur. Həmin Konstitusiya layihəsinin hazırlanması, müzakirəsi və qəbul edilməsinə dair sənədlər çox vacib tarixi qaynaqlardır və onların öyrənilməsi Azərbaycanda dövlət quruculuğunun, o cümlədən qanunvericiliyin və qanunvericilik aktlarının yaradılması təcrübəsinin araşdırılması baxımından böyük əhəmiyyətə malikdir.

Heydər Əliyev Konstitusiya komissiyasının yuxarıda qeyd olunan iclasındakı yekun nitqində demişdir: «Beləliklə, biz həm Azərbaycanın qanunvericiliyi sahəsində çox ciddi addım atırıq, həm də ki, bu məsələləri nizamlayırıq. Yəni müstəqil Azərbaycan dövlətinin, respublikasının tərkibində Naxçıvan Muxtar Respublikası böyük tarixi mərhələlərdən keçərək, nəhayət, özünə uyğun, özünəməxsus bir status, bir yer alacaqdır. Bu, bu gün üçün də, gələcək üçün də lazımdır».

Heydər Əliyevin respublikaya ikinci rəhbərliyi dövründə Naxçıvanda yeni iqtisadi münasibətlərin təşəkkülü və inkişafı, xalqın həyat səviyyəsinin yüksəldilməsi, sərhədlərin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, mədəni inkişaf sahəsində də böyük uğurlar əldə olundu. Heydər Əliyevin təşəbbüsü ilə görkəmli Azərbaycan şairi Hüseyn Cavidin qəbri üzərində Naxçıvan memarlıq məktəbi ənənəsinə uyğun olaraq möhtəşəm məqbərə ucaldıldı [1996-cı il].

Heydər Əliyev siyasi xəttinin layiqli davamçısı, müasir dünyanın görkəmli dövlət xadimi İlham Əliyevin 2003-cü ilin oktyabrında Azərbaycan Respublikasının

Prezidenti seçilməsi ölkənin həyatında böyük tarixi hadisə oldu. 1993-cü ilin iyununda olduğu kimi Azərbaycan xalqı yenə öz sözünü dedi: xalq öz taleyini və doğma Vətənin müqəddəratını Heydər Əliyevin ən yaxın silahdaşı İlham Əliyevə etibar etdi.

Naxçıvan bütün tarixi dövrlərdə Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi onun tarixi taleyini birgə yaşamışdır və yaşamaqda davam edir. Erməni işğalları nəticəsində Naxçıvanın Azərbaycanın digər torpaqlarından ayrı salınması, son on beş ildə isə Muxtar Respublikanın ermənilər tərəfindən blokadaya alınması onu böyük çətinliklərlə üz-üzə qoymuşdur. Lakin uzun sürən ağır blokada şəraiti Naxçıvanın və naxçıvanlıların iradəsini qıra bilməmiş, əksinə, daha da mətinləşdirmişdir. Məhz Naxçıvanda həyata keçirilən qətiyyətli tədbirlər nəticəsində, ermənilər Qarabağdakı işğalçılıq siyasətini burada reallaşdıra bilməmişlər.

Naxçıvanın keçdiyi qədim və uzun tarixi inkişaf yolunun hər bir səhifəsi aydın sübut edir ki, bu diyar ən qədim zamanlardan türk yurdu kimi Azərbaycana məxsus olmuşdur, onun ayrılmaz tərkib hissəsidir və Azərbaycanın ən qədim mədəniyyət mərkəzlərindən biridir.

Azərbaycan torpağı olan Naxçıvan bu gün dinamik inkişaf edən, Azərbaycan Respublikasının tərkibində dünya birliyinə uğurla inteqrasiya edən çox önəmli bir bölgədir.